# GƏLƏCƏYİN PEŞƏSİ: BİZNES ANALİTİK



**Sevinc Qasımova,**
*ADNSU-nin nəzdində Sənaye və Texnologiya Kollecinin müəllimi*
*e-mail: sevinc.qasimova.69@mail.ru*
*https://doi.org/10.30546/2706-7858.2026.2.3028*

**UOT:** 33
**Xülasə.** *Məqalədə rəqəmsal transformasiya şəraitində biznes analitik peşəsinin rolu və əhəmiyyəti geniş şəkildə təhlil olunur. İnformasiya texnologiyalarının sürətli inkişafı nəticəsində müəssisələrin fəaliyyətində baş verən dəyişikliklər və bu dəyişikliklərin idarə olunmasında biznes analitikasının əhəmiyyəti vurğulanır. Biznes analitikin əsas funksiyaları – biznes proseslərinin təhlili, problemlərin aşkar edilməsi, tələblərin formalaşdırılması və effektiv həllərin təklif edilməsi izah edilir. Eyni zamanda bu peşənin müxtəlif sahələrdə tətbiqi, əmək bazarında artan tələbatı və geniş karyera imkanları diqqətə çatdırılır. Nəticə olaraq sonda biznes analitiklərin təşkilatlarda qərarvermə prosesinin təkmilləşdirilməsində və rəqabət üstünlüyünün əldə olunmasında mühüm rol oynadığı qənaətinə gəlinir.*

***Açar sözlər:*** *biznes analitikası, rəqəmsal transformasiya, qərarvermə, biznes proseslərinin təhlili, informasiya texnologiyaları, strateji idarəetmə, analitik düşüncə.*
***Keywords:*** *business analytics, digital transformation, decision-making, business process analysis, information technologies, strategic management, analytical thinking.*
***Ключевые слова:*** *бизнес-аналитика, цифровая трансформация, принятие решений, анализ бизнес-процессов, информационные технологии, стратегическое управление, аналитическое мышление.*

Ətrafımızdakı dünya sürətlə dəyişir, inkişaf edir. Bu dəyişikliklərin əsas səbəbi informasiya texnologiyalarının inkişafıdır, bolluğudur. Son 15-20 il əvvələ nəzər salsaq görərik ki, İT daha çox biznesin dəstəkləyici funksiyası kimi qəbul olunurdu. Bu gün isə onun bir çox sahələri İT olmadan, ümumiyyətlə, mövcud ola bilmir. Müəssisələrin əksəriyyəti istər zavod, istər bank, istərsə də dövlət qurumu olsun, fəal şəkildə “rəqəmsal mühitə” keçid edir. Bu keçid çoxsaylı insanların – sahə üzrə mütəxəssislər, menecerlər, analitiklər, proqramçılar və test hazırlayanların böyük intellektual bacarığını tələb edir. Uğur birbaşa olaraq bütün maraqlı tərəflərin bir-birini nə dərəcədə dəqiq başa düşməsindən və layihənin məqsədini necə dərk etməsindən asılıdır. Təcrübəli analitiklərin dediyi kimi, informasiya sistemlərinin yaradılmasında ən çətin məsələ nə yaratdığımızı dəqiq müəyyənləşdirməkdir. “Biz rəqəmsal transformasiya dövründə yaşayırıq” bu ifadəsinin arxasında informasiya texnologiyalarının həyatımıza getdikcə daha sürətlə nüfuz etməsi dayanır. Son 15 il ərzində elə bir nəsil formalaşıb ki, ofis proqramlarında “yadda saxla” ikonunun niyə disket şəklində olduğunu bilmir.

Bundan başqa nümunə olaraq, elastik maqnit disklərin məlumat daşıyıcısı kimi sürətlə və hiss olunmadan həyatımızdan yoxa çıxmasını, smartfonların stolüstü kompüterləri, striminq platformalarının isə televiziyanı əvəz etməsini qeyd etmək olar. Artıq alış-veriş üçün evdən çıxmağa belə ehtiyac yoxdur, ixtisaslaşmış xidmətlər qida məhsullarından tutmuş bahalı məişət texnikasına qədər hər şeyi çatdırır. Bu dəyişikliklər peşələrə də təsir edib: bəziləri dəyişir, bəziləri ləğv edilir və yeniləri ilə əvəz olunur. Ətraf mühitimiz getdikcə daha çox rəqəmsallaşır və bu da uyğun bacarıq və kompetensiyalara malik mütəxəssislərə olan tələbatı artırır.

Müasir dünyada iqtisadi dəyişikliklər, qlobal böhranlar və sürətli rəqəmsallaşma şirkətləri daha çevik və effektiv işləməyə məcbur edir. Bu şəraitdə biznes proseslərini düzgün analiz edə bilən və inkişaf istiqamətlərini müəyyənləşdirən mütəxəssislərə olan tələbat əhəmiyyətli dərəcədə artmışdır. Belə mütəxəssislər arasında biznes analitiklər xüsusi yer tutur.

**Biznes analitik kimdir?**

Biznes analitik şirkətin biznes proseslərini öyrənən, problemləri müəyyən edən və onların optimallaşdırılması üçün həllər təklif edən mütəxəssisdir. Onun əsas vəzifəsi biznesin necə işlədiyini anlamaq, harada itkilərin olduğunu müəyyən etmək və onları yaxşılaşdırmaq yollarını təklif etməkdir. Biznes analitik biznes ilə inkişaf (proqramlaşdırma) komandası arasında körpü rolunu oynayan mütəxəssisdir. O, müştəri-şirkətin ehtiyaclarını və biznes tapşırıqlarını formalaşdırmağa kömək edir, eyni zamanda bu tapşırıqlar üçün həll modelləri hazırlayaraq onların həyata keçirilməsi üçün təqdim edir.

"Biznes analitik" peşəsi İT sənayesində ən maraqlı peşələrdən biridir. Bu peşəyə yiyələnməklə istənilən şirkətin fəaliyyətini təhlil etmək mümkündür. Burada sərt sahə məhdudiyyəti yoxdur, məsələn bu gün siz böyük bir bank üçün layihə üzərində işləyirsinizsə, sabah enerji şirkəti və ya zavod üçün işləyə bilərsiniz. Bu isə sizə çoxsaylı maraqlı insanlarla ünsiyyət qurmağa və hər dəfə yeni bir ideya ilə qarşılaşaraq dünyagörüşünüzü genişləndirməyə imkan verir. Hətta biznes analitik eyni sahəyə aid layihələrə fokuslansa belə, bu iki eyni bank və ya zavod olmur. Məhz ona görə də biznes analitik peşəsinə bu gün daha çox tələbat vardır.

Biznes analiz təşkilatın inkişafına yönəlmiş, düşünülmüş, balanslı və praktik rəqəmsal transformasiyanın əsas alətidir. Düzgün suallar vermək bacarığı, hər hansı bir məsələyə müxtəlif baxış bucaqlarından yanaşmaq, eləcə də sağlam skeptisizm İT layihələrində biznes analitiklərin əsas rolunu təşkil edir və bu istiqamətdə inkişaf davamlı və sonsuzdur.




"Biznes analitik" peşəsi "həkim" peşəsi kimi hər zaman tələb olunan olacaqdır. Əgər həkim insanları müalicə edirsə, biznes analitik sahibkarlığa kömək edir. O, problemləri aşkar edir və onların həlli üçün ən yaxşı yolları təklif edir. Lazımi bacarıq, bilik və kompetensiyalara malik olan biznes analitikin qarşısında böyük imkanlar açılır. Belə ki, karyerasına təcrübəçi kimi başlayaraq ekspert səviyyəsinə qədər yüksələ bilər. Bu peşədə tapşırıqların genişliyi sayəsində isə darıxmaq, demək olar ki, mümkün deyildir.

Son illər "biznes analitik" peşəsi əmək bazarında ən çox tələb olunan ixtisaslardan birinə çevrilmişdir. Şirkətlər getdikcə yalnız məlumatlarla işləyənlərə deyil, onları biznes üçün aydın və faydalı həllərə çevirə bilən mütəxəssislərə daha çox ehtiyac duyurlar. Çünki biznes analitiklər sifarişçilər, menecerlər və texniki mütəxəssislər arasında əlaqələndirici rol oynayırlar. Biznes analitikin kompetensiyaları olduqca yüksəkdir, o, müxtəlif şirkətlərin fəaliyyəti ilə bağlı məlumatların toplanılması, emalı və təhlili ilə məşğul olur. Təşkilatın gəlirliliyini, xərclər və satış faizlərini, həmçinin müxtəlif proseslərdə iştirak edən əməkdaşların sayını izləyir. Hazırda biznes analitikin ən populyar istiqaməti informasiya texnologiyaları sahəsidir. Bununla ya-

naşı, bu ixtisas tikinti, daşınmaz əmlak, investisiya, tibb və istehsalat sahələrində də geniş yayılıb. Əslində, hər bir şirkətdə biznes analitik və ya belə mütəxəssislərdən ibarət komanda olmalıdır. Bu mütəxəssislər olmadan biznes strategiyalarını düzgün qurmaq və ən əsası, onları həyata keçirtmək mümkün deyildir. Biznes analizi xüsusilə çoxsaylı mürəkkəb proseslərə, maliyyə, maddi və insan resurslarına malik iri şirkətlərdə daha böyük əhəmiyyət daşıyır. Biznes analitiklərə ən çox İT sahəsində, maliyyə texnologiyaları (fintech) sektorunda və biznes proseslərin optimal şəkildə qurulmasının vacib olduğu iri sənaye şirkətlərində ehtiyac vardır. Bu sahənin mütəxəssisləri konsaltinqdə, dövlət qurumlarında və kommersiya sektorunda da tələb olunur. Hər bir sahə məlumat axınında vacib informasiyanı əldə edib lazım olanı tapacaq bir mütəxəssis axtarır.

Biznes analitikin işi geniş və çoxşaxəli vəzifələri əhatə edir. O, ilk növbədə, sifarişçilərdən tələbləri toplayır və onları təhlil edir, daha sonra mövcud biznes proseslərini öyrənərək onların necə işlədiyini araşdırır. Bu proseslərin daha aydın başa düşülməsi üçün müxtəlif modelləşdirmə üsullarından, məsələn, diaqramlardan istifadə edir. Bununla yanaşı, biznes analitik görülən işlərlə bağlı sənədlər və hesabatlar hazırlayır, İT komandası və menecerlərlə sıx əməkdaşlıq edir. Təklif olunan həllərin tətbiqinə nəzarət etmək də onun əsas vəzifələrindən biridir. Biznes analitik üzrə təhsil almaq məlumatların toplanılması, proseslərin modelləşdirilməsi və tələblərin formalaşdırılması üsullarını mənimsəməyə imkan verir ki, bu da mütəxəssisi İT, maliyyə, pərakəndə satış, istehsal və digər sahələrdə dəyərli kadr edir.

“Biznes analitik” peşəsinin aktuallığı onun şirkətlər üçün yaratdığı real dəyər ilə bağlıdır. Müəssisələr rəqabət mühitində üstünlük qazanmaq üçün daxili proseslərini optimallaşdırmağa çalışırlar. Biznes analitiklər mövcud vəziyyəti təhlil edir, problemləri aşkar edir və daha səmərəli həll yolları təklif edirlər. Onların fəaliyyəti nəticəsində şirkətlər həm xərcləri azalda, həm də məhsuldarlığı artıra bilirlər. Başqa sözlə desək, “biznes analitika” əsaslandırılmış qərarların qəbul edilməsinə imkan verən bir alətdir. Ona görə də o, marketinq, satış, əməliyyat, fəaliyyət və maliyyəyə qədər bütün biznes funksiyaları üçün faydalıdır. Analitika təşkilatlara intuisiya əsasında verilən qərarlardan faktiki məlumatlara əsaslanan strategiyalara keçməyə imkan verir. Bu strategiyalar ölçülə, optimallaşdırıla və maksimum nəticə əldə etmək üçün miqyaslandırıla bilər.

Bu sahənin digər mühüm üstünlüyü isə İT sektoruna nisbətən daha əlçatan olmasıdır. Bir çox texnoloji ixtisaslardan fərqli olaraq, biznes analitik olmaq üçün mütləq proqramlaşdırma biliklərinə sahib olmaq tələb olunmur. Əsas olan analitik düşüncə, məntiqi yanaşma və biznesin əsas prinsiplərini anlama bacarığıdır. Öyrənməyə açıq olan və özünü inkişaf etdirmək istəyən hər kəs bu sahəyə daxil ola bilər. Bundan əlavə, peşə geniş karyera imkanları təqdim edir. Bu sahədə çalışan mütəxəssislər zamanla müxtəlif istiqamətlərdə inkişaf edə bilirlər. Onlar məhsul idarəçiliyi, layihə idarəçiliyi və ya məsləhətçilik sahələrinə keçid edə, hətta rəhbər vəzifələrə yüksələ bilərlər. Bu isə peşənin uzunmüddətli perspektivdə və gəlirli olmasını təmin edir. Biznes analitiklərin fəaliyyət sahəsi biznes və texnologiyaların kəsişməsində yerləşir. Onlar şirkətin maliyyə, logistika, satış kimi müxtəlif funksional sahələrini dərindən öyrənir və bu proseslərin təkmilləşdirilməsi üçün müasir İT həllərini tətbiq edirlər. Beləliklə, biznes analitiklər həm texniki komandalar, həm də biznes tərəfi arasında əlaqələndirici rol oynayırlar.

“Biznes analitik” peşəsi informasiya ilə işləməyi, prosesləri təhlil etməyi və effektiv həllər tapmağı sevənlər üçün əla seçimdir. Bu, daim inkişaf tələb edən dinamik və perspektivli karyeradır, eyni zamanda peşəkar inkişaf üçün geniş imkanlar açır. Həmçinin bu peşə çevik iş imkanları ilə də seçilir. Müasir iş mühitində biznes analitiklər üçün məsafədən işləmək və elastik iş qrafiki kimi üstünlüklər geniş yayılmışdır. Bu isə iş və şəxsi həyat arasında balans yaratmaq baxımından mühüm əhəmiyyət daşıyır.

**Nəticə.** Biznes analitik müasir dövrün tələblərinə cavab verən, dinamik və perspektivli peşə sahəsidir. Bu sahə təşkilatlarda qərarvermə prosesində məlumatların təhlili vasitəsilə risklərin azaldılmasına, resursların səmərəli idarə olunma-

sına və gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə imkan yaradır. Analitik düşüncə qabiliyyətinə malik, yeniliklərə açıq və inkişaf etməyə hazır olan şəxslər üçün bu sahə uğurlu karyera qurmaq baxımından ideal seçim hesab olunur.

## İstifadə edilmiş ədəbiyyat

1. Комсков В. Введение в профессию бизнес аналитика. Отправная точка для приобретения опыта. Издательство «Эксмо», 2025.

2. Гущина О.М., Аникина О.Б. Основы бизнес анализа (учебно-методическое пособие). Тольятти: Тольяттинский Государственный Университет, 2023, 114 с.

3. Бариленко В.И. Основы бизнес анализа (учебное пособие). Издательство «КноРус», 2014.

4. Hawkins A., Turner C. Büdcələrin idarə edilməsi. 1995 ("Management Pocketbooks" Ltd ilə razılaşma əsasında Azərbaycan dilinə tərcümə olunaraq nəşr edilmişdir).

5. Hayden P. Şəxsi uğur. 1999 ("Management Pocketbooks" Ltd ilə razılaşma əsasında Azərbaycan dilinə tərcümə olunaraq nəşr edilmişdir).

**S.Gasimova**

## Profession of the future: business analyst

**Abstract**

The article extensively analyzes the role and importance of the business analyst profession in the context of digital transformation. It highlights the changes occurring in the activities of enterprises as a result of the rapid development of information technologies and emphasizes the significance of business analytics in managing these changes. The main functions of a business analyst – analyzing business processes, identifying problems, defining requirements, and proposing effective solutions – are explained. At the same time, the application of this profession in various fields, the growing demand in the labor market, and the wide range of career opportunities are brought to attention. As a result, it is concluded that business analysts play a crucial role in improving decision-making processes within organizations and in achieving competitive advantage.

**С.Гасымова**

## Профессия будущего: бизнес-аналитик

**Аннотация**

В статье подробно анализируются роль и значение профессии бизнес-аналитика в условиях цифровой трансформации. Подчеркиваются изменения, происходящие в деятельности предприятий в результате стремительного развития информационных технологий, а также важность бизнес-аналитики в управлении этими изменениями. Объясняются основные функции бизнес-аналитика – анализ бизнес-процессов, выявление проблем, формирование требований и предложение эффективных решений. Вместе с тем рассматриваются применение данной профессии в различных сферах, растущий спрос на рынке труда и широкие карьерные возможности. В результате делается вывод о том, что бизнес-аналитики играют важную роль в совершенствовании процессов принятия решений в организациях и в достижении конкурентных преимуществ.